# "Nəsimi ili – Nəsimi dili"

Dahi şairin 650 illiyinə bir sənət töhfəsini də Bakı Uşaq Teatrı verib. Teatrın təşəbbüsü ilə 12-13 aprel tarixində "Nəsimi ili – Nəsimi dili" festivalı keçirildi.

Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Azərbaycan Teatr Xadimləri İttifaqının dəstəyi ilə reallaşan layihəyə Bakı Uşaq Teatrı, Akademik Musiqili Teatr, Sumqayıt Dövlət Dram Teatrı, Dərbənd Azərbaycan Dövlət Dram Teatrı, Mədəniyyət və İncəsənət Universiteti və Respublika İncəsənət Gimnaziyası qatılmışdı.



Festival tamaşaları Azərbaycan Teatr Xadimləri İttifaqının Abbas Mirzə Şərifzadə səhnəsində nümayiş olundu. Münsiflər heyətinin dəyərləndirməsinə görə ayrı-ayrı aktyorlar mükafatlandırıldı. Ümumilikdə isə heç kim təltifsiz qalmadı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən bütün iştirakçılara fəxri fərmanlar təqdim edildi.

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 7.